UOT 94

NƏRGİZ QAFARLI
Bakı Dövlət Universitetinin doktorantı
qafarli18@bk.ru

AYƏTULLAH MƏHƏMMƏD BAQİR ƏS-SƏDRİN İRAQDA İCTİMAİ-SİYASİ FƏALİYYƏTİNƏ DAİR

DOI: https://doi.org/10.36719/2708-065X/105/181-186

Məqalə Ayətullah Məhəmməd Baqir əs-Sədrin İraqda ictimai-siyasi fəaliyyətinin araşdırılmasına həsr olunmuşdur. Seyid Məhəmməd Baqir əs-Sədr İraqdakı şiə icması arasında böyük nüfuza malik olan "Sədr" ailəsinin ən məşhur nümayəndələrindən biri idi və hələ gənc yaşlarından başlayaraq ictimai-siyasi fəaliyyətə başlamışdı. Məqalədə M.B.əs-Sədrin 1958-ci ildə İraqda baş verən hərbi çevrilişdən sonra hakimiyyədə olan qüvvələrə qarşı mövqeyi və bu istiqamətdəki fəaliyyətinin xarakterik cəhətləri araşdırılmış və hərtərəfli təhlil olunmuşdur.

Açar sözlər: İraq, Məhəmməd Baqir əs-Sədr, şiə müxalifəti,şiə ruhaniləri, Bəəs partiyası.

Giriş. İkinci Dünya müharibəsindən sonra İraqın sosial-iqtisadi və siyasi həyatında olduqca mürəkkəb bir dövr yaşanırdı. Bu, həm daxili, həm də xarici siyasətdə özünü büruzə verirdi. Belə ki, İraq hakim dairələrin ingilispərəst siyasi xətti, xalqından qopuq idarəçiliyi, köhnə və yeni meydana çıxan siyasi elita arasında yaranan ciddi ziddiyyətlər və s. artıq Həşimi monarxiyasının əleyhinə işləyirdi. Eyni zamanda Ərəb dövlətlərinin 1948-ci ildə İsrailə qarşı müharibədəki uğursuzluqlarının ardından regionu əhatə edən kütləvi çıxışlar, mövcud sosial-iqtisadi və siyasi ədalətsizlik və s. inqilabi dəyişikliklərə ehtiyac hissini daha da artırmışdı [4, s.2]. XX əsrin 50-ci illərindən başlayaraq bu meyllər daha da geniş vüsət aldı, xüsusilə də 1955-ci ildə Bağdad paktının imzalandığından sonrakı hadisələr Ərəb dünyasında antiqərb və radikal millətçi elementləri gücləndirmişdi [7, s.363]. 1956-cı ildə baş vermiş Süveyş böhranı dövründə isə İraqda Misiri müdafiə etmək şüarları altında güclü çıxışlar baş verdi və bu çıxışlar antihökumət xarakteri almışdı. Digər tərəfdən, ölkədə siyasi şəraitlə yanaşı, sosial-iqtisadi vəziyyət də qənaətbəxş deyildi. İraq iqtisadiyyatı İkinci Dünya müharibəsindən sonra durğunluq, ardınca isə tənəzzül dövrünü yaşayırdı: inflyasiya artmış, həyat səviyyəsi isə aşağı düşmüşdü. Belə ki, ABŞ İraqdakı səfirliyinin hazırladığı hesabatda yaşayış səviyyəsi ilə sosial sabitlik arasında sıx əlaqənin olduğu açıq şəkildə ifadə edilirdi: "İraq üçün əsas təhlükə daxili sabitliyin pozulmasına təsir edən aşağı yaşam standartlarıdır. İraq iqtisadi baxımdan inkişaf etmədiyi müddətcə kommunizm təhlükəsinə qarşı müdafiəsiz qalacaqdır". [6, s.8] Uzun müddət İraqın Baş naziri olmuş Nuri Səid və onun xəlfələri iqtisadiyyatı ölkənin siyasi və sosial sabitliyin açarı hesab etsələr də, yürütdükləri siyasət sosial şəraitin yaxşılaşması üçün yetərli deyildi. Əlavə problemləri isə mürtəce, xalqa zidd parlamentdə əyləşən mühafizəkar deputatlar yaradırdı: onların əksəriyyəti yoxsul, səfalət içində yaşayan vətəndaşların həyat şəraitinin düzəlməsi üçün təklif olunan tədbirlərə qarşı çıxırdılar [6, s.9].

İraqda ölkənin siyasi inkişafına və digər ərəb ölkələri ilə münasibətlərinə təsir edən başqa bir amil əhalinin mürəkkəb strukturu idi. Əksəriyyət təşkil edən şiə icması siyasi sistemdə yetərincə təmsil olunmurdu və siyasi təsir imkanlarının sünni azlığın əlində cəmləşməsi onları narahat etməyə bilməzdi. Bu mənzərə XX əsr boyu İraqın siyasi səhnəsini xarakterizə edən amillərdən idi ki, bu da həm hakim elitanın, həm də idarə olunan kütlələrin formalaşmasına təsir edirdi. Sünnilərin imtiyazlı bir hakim qrup kimi mövqelərini möhkəmləndirməsi İraqda şiələri hakimiyyətə qarşı davam gətirmək üçün səylərini artırmağa sövq edirdi.

Sədr ailəsi. Əvvəlki dövrlərdə olduğu kimi, bu dövrdə də şiə icmasının ictimai-siyasi fəaliyyətinə istiqamət verən nüfuzlu şiə ruhaniləri idi. Xüsusilə bir çox məşhur şiə liderlərin yetişdiyi "üləma" ailələri şiə icması üzərində böyük təsir qüvvəsinə malik idi [3, s.703]. Bu ailələrin arasında ən geniş təsir imkanlarına malik olanlardan Sədr ailəsini göstərmək olar. Bu ailə Seyid Saleh Musəvi Amilinin nəslindən gələn seyid ailələrinin bir qoludur [8, s.6]. Ailənin şəcərəsi İslam peyğəmbəri

Məhəmmədin soyundan gələn 7-ci imam Museyi Kazıma gedib çıxır. Bu səbəbdən ailənin üzvləri "seyid" adını daşıyırdılar. Ailə əvvəllər öz şəcərələrindəki bəzi adlara əsaslanaraq müxtəlif ləqəblərlə təsvir edilmiş, sonradan "Əl-i Sədr" ləqəbini almışdır. "Sədr" ləqəbi ərəbcə müəyyən bir sahədə ən yüksək vəzifə tutan şəxs mənasına gəlir. Uzun illər indiki Livan ərazisinin cənubunda Cəbəl Amil bölgəsində yaşadıqları üçün Amil adı ilə də tanınırdılar [8, s.6]. Şiə icmasında Sədr ailəsinin üstün mövqeyinə onların seyid mənşəyi ilə yanaşı, bu ailənin üzvlərinin dini iyerarxiyada çatdığı müctəhidlik statusu da təsir etmişdir. Sədr nəslindən olan Ayətullah Seyid Məhəmməd Baqir əs-Sədr (1935-1980) və Ayətullah Seyid Məhəmməd Sadiq əs-Sədr (1943-1999) mərcə-i təqlid dərəcəsinə çatmışdılar. Üstəlik, hər ikisinin şəhid olması faktı Sədr ailəsini daha da önə çıxarıb, siyasi mövqelərinə təsir etmişdi. Üləma ailələri arasında ən nüfuzlu olduğu bildirilən Sədrlər şiə müqavimətinin simvolu olan hərəkatların və İraq şiə icmasının tanınmış liderlərinin qaynağı olmuşdur.

Sədr ailəsinin ictimai-siyasi fəaliyyəti ilə ən çox diqqət çəkən, tanınmış üzvlərindən biri Məhəmməd Baqir əs-Sədrdir. O, 1935-ci il martın 1-də İraqın Kazimeyn şəhərində anadan olmuşdur. Atası Seyid Heydər İraqda məşhur alimlərdən biri idi. Anası da alimləri ilə məşhur, üstün əxlaqi keyfiyyətlərə malik olan bir ailədən gəlirdi. Məhəmməd Baqir Sədrin özü kimi çox gənc yaşda müctəhid olan bir qardaşı və mütəfəkkir, yazıçı, şair, müəllim olan, onunla birlikdə İslam yolunda şəhid olan Əminə (Bint əl-Huda) adlı bir bacısı var idi. Sədr gənc yaşlarından ictimai-siyasi fəaliyyətə başlamışdı.

İraqda hərbi çevrilişdən sonra Məhəmməd Baqir əs-Sədrin ictimai-siyasi fəaliyyəti. 1958-ci ildə İraqda baş verən çevrilişdən sonra isə onun fəaliyyətində yeni bir mərhələ başladı [5, s.5]. Məlumdur ki, 1958-ci il hərbi çevrilişi ölkənin siyasi sistemini və sosial quruluşunu dəyişdirən böyük qarışıqlıq dövrü başlatmışdı. 1921-ci ildə Britaniya tərəfindən yaradılan İraq krallığı respublika quruluşu ilə əvəz olunmuşdu [9]. İraqın Bağdad paktından çıxması, ölkədəki Britaniya hərbi bazalarının ləğv edilməsi və əsasən antiqərb siyasətinin yürüdülməsi üsyana rəhbərlik edən general Ə.K.Qasimə müasir İraq tarixində görünməmiş xalq dəstəyi qazandırmışdı.

1920-ci ildə İngilislərə qarşı həyata keçirdikləri üsyandan bu yana nisbətən sakit mövqedə duran şiə dini icması qarşısı alınmadığı təqdirdə İslamı insanların həyatından silə biləcək bir sıra əsasən dünyəvi siyasi qüvvələrin və cərəyanların onlara qarşı cəbhə aldıqları qənaətində idi. Xüsusilə də, Ə.K.Qasimin öz sosial bazasını genişləndirmək üçün kommunistlərə meyl etməsini və onların əhali arasında təbliğatını atırmasını gələcək üçün təhlükə olaraq qiymətləndirən dini rəhbərlik (mərcəiyyət) bu problemləri həll etmək üçün addımlar atmağa başladı. Bu məqsədlə dinə zidd cərəyanlara qarşı Nəcəfdə "Camaat əl-Üləma" adlı təşkilat yaradıldı. "Camaat əl-Üləma"nın həftəlik ictimai bəyanatları Sədr tərəfindən yazılır və Hadi əl-Həkim vasitəsilə müvafiq yerlərə çatdırılırdı. Eyni zamanda iki il ərzində "Camaat əl-Üləma"ya aylıq "Ədvaa" ("İşıq") jurnalını nəşr etmək icazəsi verilmişdi ki, onun məqsədi 1958-ci ildən sonra gedən din əleyhinə təbliğatla mübarizə aparmaq idi. Bu jurnalda əs-Sədr İslami hərəkatın təməl siyasi proqramının ana xətlərini çəkdiyi məqalələr yazırdı və qeyd olunmalıdır ki, bu yöndə yüksək yazma qabiliyyətinə sahib olduğu aydın görünürdü [1, s.209]. Daha sonra o, kommunizmin, materialist düşüncə məktəbinin və dialektik materializmin tənqidini ehtiva edən ilk fəlsəfi əsəri "Falsafatuna"nı (Fəlsəfəmiz; 1959) çap etdirdi; burada kommunizmin insanlıq üçün son həqiqət olaraq qəbul edilməyəcək qədər çox qüsuru olduğu ideyasını müdafiə edirdi. "İqtisaduna" (Bizim İqtisadiyyatımız; 1961) adlı ikinci əsərində o, kommunizm və kapitalizmin iqtisadi nəzəriyyələrini tənqid edir və laiklərin və kommunistlərin İslamın müasir dövrdə insanın problemlərinə həll yolu tapa bilmədiyi yönündəki iddialarına qarşı bir siyasi iqtisadiyyat nəzəriyyəsi ortaya qoyurdu. "Falsafatuna" və "İqtisaduna" kimi kitabları nəşr etməklə o zaman hələ gənc olan əs-Sədr İslam nəzəriyyəsinin nə qədər müstəqil olduğunu və öz ənənəsinə sadiq qalaraq kapitalizmdən, kommunizmdən və sosializmdən kənarda irəli gedə biləcəyini əsaslandırmağa cəhd göstərdi.

Eyni zamanda, əs-Sədr və onun həmkarları "Əd-Daava əl-İslamiyyə" Partiyasını yaratmaqla dünyəvi qüvvələrlə qarşı-qarşıya gəldilər. Seyid M.B. əs-Sədrin fikrinə görə, şiə partiyasına "Əd-Daava əl-İslamiyyə" adının verilməsi təkcə onun fəaliyyətinə verilən təbii termin deyil, həm də insanları İslamı mənimsəməyə çağırış məqsədini ehtiva edirdi. O, partiyanın rəhbəri, sonralar isə ali fəqihi kimi onun qurulması, formalaşması, doktrinasının müəyyən edilməsində mühüm rol oynamışdır. "Əd-Daava"nın əsas məqsədi fədakar müsəlman möminlərin təşkilatlandırılması ilə yanaşı şəriət

dövlətinin qurulması, İslam qanunlarının həyata keçirilməsi və İslam inqilabının dünyanın qalan hissəsinə ixrac edilməsi kimi böyük planlar idi. Partiya üzvlərini repressiyalardan qorumaq üçün birinci mərhələdə gizli fəaliyyət göstərməli idi, ona görə də partiya iyerarxik çoxşaxəli hüceyrə strukturunda təşkil edildi. Onun fəaliyyəti təkcə İraqla məhdudlaşmamalı, dünyanın digər şiə icmalarında da davam etməli idi. Lakin Sədrin hövzədəki böyükləri onun liderliyinə xələl gətirən "Əd-Daava" partiyasındakı siyasi rolundan imtina etməyi və özünü şiələrin gələcək böyük mərcəyi olmağa hazırlamağı tövsiyə etdilər. Təyin olunmaq hövzədəki müctəhidlərin razılığından asılı olduğundan, əs-Sədr siyasi fəaliyyətini davam etdirdiyi müddətcə bütün şiələrin böyük mərcəsi olmaq ehtimalını azaldırdı. Sədrə siyasi fəaliyyətindən əl çəkməsi üçün təzyiqlər əsasən keçmiş mərcə Möhsün əl-Həkimdən qaynaqlansa da, hövzədəki bir çox qruplar Sədrin fəallığını tənqid edirdi. "Camaat"dakı bir qrup da Sədrə qarşı aparılan təbliğatın təsirinə düşərək narazılıqlarını göstərməyə başlamışdılar. Nəhayət, 1961-ci ildə əs-Sədr "Əd-Daava" partiyasının fəqihi və "Ədvaa"nın redaktoru vəzifəsindən getməyə razı oldu. İstefasından sonra o, özünü hövzənin ənənəvi həyat tərzi ilə məhdudlaşdıraraq, mərcə statusunu təhlükə altına qoya biləcək fəaliyyətlərdən uzaq durdu. Hətta çoxdan gözlədiyi "Cəmiyyətimiz" adlı kitabının nəşrini gecikdirdi, çünki bəzi mənbələrdə, bunun üçün hələ şəraitin yetişməməsi səbəb kimi göstərilirdi [1, s.210]. Sədrin islahat həvəsi indi hövzənin özünə yönəlmişdi. Bunun üçün tədris proqramını müasirləşdirmək lazım idi. Məlumdur ki, Nəcəf hövzəsi o dövrdə yalnız fiqh və üsul-əl-fiqh elmlərini ön plana çıxarmışdı, digər İslami elm sahələri isə diqqətdən kənarda qalmışdı. Əs-Sədr həm də tələbələrin nizamsız davamiyyətindən və dərslərinə etinasızlıqlarından da narahat idi. O, tələbələrin "alim" olmalarını iddia etməzdən əvvəl kurslarını fərqlənmə ilə bitirməli olduqlarını qeyd edirdi və köhnə dərsliklərin müasir tələbələrə uyğun olmadığını əsas gətirərək yeni dərsliklərin işlənib hazırlanmasını təklif etdi. Sədrin fikrincə, dərslik şagirdin mövzunu əsas anlayışlarından ən son mərhələyə qədər tədricən dərk etmə qabiliyyətini nəzərə almaqla tərtib edilməli idi. Onun planı təkcə müasir dərsliklərdən istifadəni deyil, həm də tələbələrin müəyyən kursları bitirmək və müntəzəm imtahanlardan keçmək üçün məsuliyyət daşıdığı Qərb tipli universitetlərin yaradılmasını əhatə edirdi. İslahatlarını həyata keçirmək məqsədilə o, 1964-cü ildə Bağdadda Üsuləddin Kollecinin yaradılmasına və onun tədris proqramının tərtib olunmasına kömək etdi. Daha sonra kollecin birinci və ikinci kurs tələbələri üçün Quran, üsul əl-fiqh və İslam iqtisadiyyatı üzrə üç dərslik yazdı. Buna baxmayaraq, onun islahatlarını həyata keçirməsi səyləri həm tələbələrin, həm də köhnə ənənələrin tərəfdarları tərəfindən ciddi müqaviməti ilə üzləşdi.

1968-ci il iyulun 17-də Bəəs Partiyasının hakimiyyətə gəlməsindən sonra şiə liderləri Möhsün əl-Həkim və Məhəmməd Baqir əs-Sədr ilə Bağdaddakı mərkəzi hökumət arasında qarşıdurmada yeni mərhələ başladı. Rejim həm xarizması, həm də siyasi nüfuzu olan iki liderlə - dünya şiələrinə simvolik liderlik edən əl-Həkimlə və "Əd-Daava" üzərinə böyük təsirə malik olan əs-Sədrlə üz-üzə gəldi. İqtidarın ilk addımı onların dini fəaliyyətlərini məhdudlaşdırmaq oldu. Bağdaddakı Cavadeyn ibtidai məktəb və liseylərinin, Üsuləddin kollecinin bağlanması, Kufə Universitetinin tikintisi üçün ayrılmış torpaq və vəsaitlərin müsadirə edilməsi, yüzlərlə qeyri-iraqlı tələbənin Nəcəfdəki hövzədən qovulması və hövzədə təhsil alan iraqlı tələbələrin orduya qoşulmasını tələb edən qanunun qəbul olunması bu siyasətin həyata keçirilməsinə xidmət edirdi [1, s.212]. Bəəsin şiə icmasının siyasi quruluşunu dağıtmaq planından xəbərsiz olan liderlər hökumətlə rəftar etməyin barışdırıcı yollarını tapmaq məqsədilə bir araya gəldilər və ictimai etiraz aksiyası keçirməyə qərar verdilər [2, s.4]. Əs-Sədr xaricdə etiraz aksiyaları təşkil etmək və İraq hökumətinə qarşı kampaniya aparması üçün Livana getdi. Burada əmisioğlu Musa əs-Sədr tərəfindən İslam dövlətləri və İslami qrupların başçılarına teleqramlar göndərildi və Bəəs rejiminin Nəcəfdə dini rəhbərliyə qarşı təzyiqlərinə diqqət çəkildi. Lakin bu cəhdlər nəticəsiz qalır. Sadəcə bir neçə ölkədən mənəvi dəstək ifadə olundu, lakin heç kim əsaslı bir addım atmadı.

Möhsün əl-Həkim vəfat etdikdən sonra Bəəs hökuməti iraqlı olmayan tələbələri hövzədən qovmaqla və oradakı iraqlı tələbələri izləməklə Nəcəfdə hövzənin təsirini azaltmaq üçün səylərini gücləndirdi. Qeyri-iraqlı tələbələri ölkədə saxlamaq və hökumətə müqavimət göstərmək məqsədilə Sədr Ayətullah Xoyini Nəcəfdə qalıb təhsillərini davam etdirmələri haqqında tələbələrə əmr verməyə razı sala bildi. Olduqca böyük bir nüfuza sahib olan yeni şiə mərcəsi Ayətullah Xoyi ilə düşmənçilik etmək istəməyən Bəəs hökuməti deportasiya siyasətini həyata keçirməyi təxirə saldı. Bundan sonra

Bəəs rejimi "Əd-Daava" partiyasını sıxışdırmağa başladı. Partiyanın bir çox üzvləri 1972-ci ildə həbs olundu və bir ildən beş ilədək həbs cəzasına məhkum edildi. Bir il sonra, təxminən yetmiş beş partiya üzvü təhlükəsizlik qüvvələri tərəfindən saxlanıldı və edama məhkum edildi. Üçü üləma olan bu insanlara hökm oxunması, Xoyi və Sədr də daxil olmaqla, şiə ruhanilərinin etirazına və qınamasına səbəb oldu. Din alimlərinin edam olunmasının qarşısını almaq üçün Sədr hövzə tələbələrinin və alimlərinin hər hansı siyasi partiyaya qoşulmasını qadağan edən fətva verdi. Sədr özü də təhlükəsizlik qüvvələri tərəfindən saxlanılaraq dindirilmək üçün Nəcəfdən Bağdada aparılsa da, tezliklə sərbəst buraxılmışdı.

1977-ci ilin əvvəllərində Bəəs rejimi tərəfindən şiə icmasına qarşı tətbiq edilən dini məhdudiyyətlər daha da sərtləşdirildi. Hətta Məhərrəm ayında maşınlara dövlət məmurları tərəfindən baxış keçirilirdi və mərasimlə bağlı aşkarlanan hər şey müsadirə edilirdi, dövlət məmurları zəvvarlar üçün hazırlanmış yeməkləri belə götürürdü. 1977-ci il fevralın 5-də Ərbəin yürüşünə getmək və İmam Hüseynin qəbrini ziyarət etmək istəyən böyük bir izdiham Nəcəfdə İmam Əlinin hərəminə toplaşdı. Bəzi tədqiqatçılar onların sayını otuz min nəfər qeyd etmişlər [7, s.80]. Bəəs rejimi İmam Hüseynin şəhadəti ilə bağlı illik mərasimləri qadağan edərək şiələri cilovlamaq üçün sərt addım atmışdı, çünki bu yürüşü onların yürütdüyü dünyəvilik siyasətinə zidd olması kimi qiymətləndirdi. Nəcəf-Kərbəla yoluna hərbi qüvvələr cəmləşdi və yol boyunca toqquşmalar baş verdi. Bu arada qaldırılan şüarlar hadisənin mahiyyətinə uyğun idi: "Ayağımızı və əlimizi kəssələr belə, sənin yanına sürünəcəyik, ya Hüseyn". Baş verən hadisələr Nəcəfdə də iğtişaşlara səbəb oldu. Təşkilatçılar dini hüquqlarını qorumaq üçün insanları hakimiyyətə qarşı dayanmağa çağıran vərəqələr paylayırdılar. Bəəs əleyhinə əhvalruhiyyə o qədər yüksək idi ki, hər hansı güzəştdən söhbət gedə bilməzdi. Hadisələrin gedişatında yüzlərlə insan həbs edildi, bir çoxu yaralandı. Sonrakı mərhələdə şiə icması İraq prezidenti Əhməd Həsən əl-Bəkr ilə görüşmək üçün nümayəndə heyəti təşkil etdi və Seyid M.B. əs-Sədrdən bu heyətə başçılıq etməsi xahiş olundu, lakin o bunu qəbul etmədi. Xoyinin oğlu Seyyid Cəmaləddin nümayəndə heyətinə başçlıq etdi, lakin görüşün heç bir müsbət nəticəsi olmadı.

Bəəsin rəhbərləri hesab edirdilər ki, onların 1977-ci ildəki tədbirləri gələcək illər üçün dini müxalifəti tərksilah etdi, lakin İranda baş verən inqilab prosesi başqa məcraya apardı. Bu inqilab regionun müsəlman əhalisi və liderlər üçün cəlbedici siyasi ssenari təqdim etdi və İraq şiələri ondan ilk nümunə götürdülər. Sonrakı illərdə əs-Sədr şəriət dövlətinin qurulması ilə bağlı altı məqalə nəşr etdi və bunlar "İslam həyatı idarə edir" adı altında toplandı. Onlardan biri İslam hakimiyyətinin qurulmasının dini əsasları ilə bağlı idi. Bu məqalədə şəriət dövlətinin quruluşunu, onun hər bir hakimiyyət qolunun funksiyalarını, mərcənin dövlətdəki vəzifələrini və İslama görə onun mütləq hakimiyyətinin qanuniliyini qeyd etmişdir. İddialar var ki, bu fikirlər İran İslam Respublikası konstitusiyasının müəlliflərinə böyük təsir göstərmişdir. Həmin sənədin yekun layihəsində İslam dövlətinin quruluşu ilə bağlı Sədrin bir çox fikirlərini tapmaq olar [1, s.220].

Sədrin rejimə qarşı ən cəsarətli addımı isə müsəlmanların Bəəs partiyasına və ya ona bağlı təşkilatlara qoşulmasını qadağan edən fətva verməsi idi. Bu o qədər təhlükəli addım idi ki, hətta İraqın müxtəlif şəhərlərində Sədrin bəzi təmsilçiləri onun və özlərinin təhlükəsizlikləri naminə bunu nəşr etməkdən çəkindilər. Belə gərgin bir zamanda Ayətullah Xomeyni Sədrə mesaj ünvanlayaraq onu hövzədə qalmağa və hökumətin təzyiqlərinə baxmayaraq İraqı tərk etməməyə çağırdı. Sədr həbs olunmaq və ya edam ediləcəyi ehtimalı olsa da, heç bir halda İraqı tərk etməyi düşünmürdü. Xomeyninin mesajı və İraqda milyonlarla insan tərəfindən dəstəklənən Sədrin cavabı bir sıra şəhərlərdə kütləvi dəstək nümayişləri dalğasına səbəb oldu. Nəcəf isə ən təlatümlü yerə çevrildi; oraya İraqın hər yerindən tərəfdarları nümayişlər keçirmək və Sədr tərəfindən qəbul edilmək üçün gəlirdi. Sədr isə onlara nümayişləri dayandırmağı söylədi, çünki onların rejimin repressiyalarına məruz qalmalarını istəmirdi. Bir müddət sonra hökumət Sədrin gözlədiyi kimi repressiyaya başladı: onun tərəfdarları və yüzlərlə "Əd-Daava" üzvü həbs olundu və ya edam edildi. Daha sonra Sədr özü saxlanılaraq Bağdada aparıldı. Onun Bint əl-Huda ləqəbi ilə tanınan bacısı Əminə Sədr İmam Əlinin müqəddəs hərəminə gedərək alovlu bir çıxış etdi və insanları hökumətə qarşı nümayiş keçirməyə, öz rəhbərini müdafiə etməyə çağırdı [5, s.150]. Onun həbs olunduğu xəbəri yayıldıqca Bağdad, Kərbəla və başqa şəhərlərdə iğtişaşlar baş verdi. Nəcəfdəki bazar bağlandı; qəzəbli izdiham polislə toqquşdu. Hökumət təhlükəsizlik səylərini artırdığı üçün bütün şəhər mühasirəyə alındı. Ölkədəki vəziyyəti nəzarət altın-

da saxlamaq naminə rejim Sədri azad etməyə məcbur olsa da, ona dəstəyin ölçüsü haqqında aydın təsəvvür əldə etdi. Buna görə də, hakimiyyət Sədri müttəfiqlərindən, üləmalardan və "Əd-Daava" partiyasının üzvlərindən ayırmağa qərar verdi. Müsəlman fəallar kütləvi şəkildə həbs edildi, işgəncələrə məruz qaldı və edam edildi, üləmanın xidmət göstərdiyi məscidlər bağlandı. Sədr özü də ev dustaqlığına salındı. 1979-cu ilin avqustunda Sədrin dindirilməsi zamanı ondan İran İslam İnqilabını pisləyən və İraqın İrana qarşı siyasətini dəstəkləyən açıq bəyanatla çıxış etməyi tələb edilir. Sədr bunu rədd etdikdə yeni vasitəçi Şeyx İsa əl-Xəqani ondan xilas olunması üçün beş şərtdən yalnız birini yerinə yetirməsi tələbi ilə göndərildi: Ayətullah Xomeyni və İran rejiminə verdiyi dəstəkdən imtina etmək; hökumətin xarici neft şirkətlərinin milliləşdirilməsi və kürdlərə milli muxtariyyət verməsi haqda dəstək bəyanatı vermək; "Əd-Daava" partiyası ilə bağlı qadağa fətvası vermək; Bəəs partiyasına qoşulmağı qadağan edən fətvanı ləğv etmək; və ya İraq rejiminə bağlı olan İraq və ya digər ərəb qəzetinə müsahibə vermək. Sədr bu tələblərin heç birini qəbul etmədi.

31 mart 1980-ci ildə ölkənin Ali orqanı – İnqilabi Komandanlıq Şurası "Əd-Daava" partiyasının keçmiş və mövcud üzvlərini və ya onun məqsədləri üçün çalışan insanları ölümə məhkum edən qanun qəbul etdi. Bu qanun Sədrin həyatını xilas etmək imkanının üstündən xətt çəkdi. O, ev dustaqlığında olarkən, tərəfdarlarına rejimə qarşı hər cür müqavimət göstərməyə çağıran üç mesaj göndərmişdi. O, hətta Bəəs partiyasının üzvlərinə də müraciət etmişdi. Bu hadisələrin ardınca təhlükəsizlik qüvvələri 5 aprel 1980-ci ildə Sədr və bacısını Bağdaddakı Milli Təhlükəsizlik Agentliyinin qərargahına apardılar və burada hər ikisi qətlə yetirildi. Üç gün sonra onun cənazəsi gizli dəfn olunmaq üçün Nəcəfdə əmisi Məhəmməd Sadiq əs-Sədrə təhvil verildi. İki həftə sonra Ayətullah Xomeyni əs-Sədr və bacısının edam edildiyini elan etdi, İraq xalqını və silahlı qüvvələri Bəəs rejimini devirməyə çağırdı.

Nəticə. Məhəmməd Baqir Sədrin edam olunmasının İraqdakı şiə müxalifəti üçün çox ağır nəticələri oldu. Belə ki, şiə icmasının müqavimətinə təşkilati və ideoloji baxımdan liderlik edən Sədrin ölümü müqavimətin zəifləməsinə, ictimai-siyasi təsirinin azalmasına səbəb oldu.

ƏDƏBİYYAT

1. Aziz M.T. "The Role of Muhammad Baqir Al-Sadr in Shi'a Political Activism in Iraq From 1958 to 1980" // International Journal of Middle East Studies, Volume 25, Issue 2, May 1993, pp.207-222.
2. Batatu H. "İraq Underround Shia Movements: Characters, Causes and Prospects"// MERIP Reports: Islam and Politics, 1982, N.102, pp. 3-9.
3. Cleveland L.W. Modern Ortadoğu Tarihi, Türkçesi: Mehmet Harmancı, Agora Kitaplığı, İstanbul, 2008, 656 s.
4. Khadduri M. Republican Iraq. A Study in Iraqi Politics since the Revolution of 1958. London, New York, Toronto, Oxford University Press 1969, 318 p.
5. Jibouri T.Y. A Tribute to the Sadr Martyrs. Bloomington. 2014, 349 p.
6. Romero J. The Iraqi Revolution of 1958: A Revolutionary Quest for Unity and Security. University Press of America. 2010, 268 p.
7.Willey J.N. The İslamic Movement of İraqi Shi'as. Boulder-London. 1992, 1373 p.
8. مشاهیر خاندان صدر: شرح حال - جلد 1، 1395، ص 1072 محسن کمالیان
9. 1958: Coup in Iraq sparks jitters in Middle East - [Elektron resurs]. – URL:http://news.bbc.co.uk/onthisday/hi/dates/stories/july/14/newsid_3736000/3736391.stm [12.04.2024].

НАРГИЗ ГАФАРЛЫ
Докторант Бакинского Государственного Университета

ОБ ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ АЯТОЛЛЫ МУХАММАДА БАКИРА АС-САДРА В ИРАКЕ

Статья посвящена исследованию общественно-политической деятельности аятоллы Мухаммада Бакира ас-Садра в Ираке. Сейед Мухаммад Бакир ас-Садр был одним из самых из-

вестных представителей семьи «Садр», имеющей большое влияние среди шиитской общины Ирака, и с юных лет начал общественную и политическую деятельность. В статье исследованы и всесторонне проанализированы позиция М.Б. ас-Садра по отношению к силам, находящимся у власти после военного переворота в Ираке 1958 года и особенности его деятельности в этом направлении.

Ключевые слова: Ирак, Мухаммад Бакир ас-Садр, шиитская оппозиция, шиитские священнослужители, партия Баас.

NARGIZ GAFARLI
PhD student at Baku State University

ABOUT AYATOLLAH MUHAMMAD BAQİR AL-SADR'S SOCİO-POLİTİCAL ACTİVİTY İN IRAQ

The article is dedicated to the investigation of Ayatollah Muhammad Baqir al-Sadr's social and political activity in Iraq. The article is dedicated to the investigation of Ayatollah Muhammad Baqir al-Sadr's social and political activity in Iraq. Seyyed Muhammad Baqir al-Sadr was one of the most famous representatives of the "Sadr" family, which has great influence among the Shia community in Iraq, and he started social and political activities from a young age. In the article, M.B. al-Sadr's position against the forces in power after the military coup in Iraq in 1958 and the characteristics of his activities in this direction were investigated and comprehensively analyzed.

Keywords: Iraq, Muhammed Baqir al-Sadr, shia opposition, shia clerics, Baath party.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 aprel 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: t.e.d. Aida Bağırova, t.e.d. Sani Hacıyev.